# Vətəndaşlar Prezidentə yazırlar:

## Gördüyünüz işlər xalqımız tərəfindən böyük qürur hissi ilə qarşılanır!

***Koronavirus pandemiyası dövründə Azərbaycan əhalisinin sağlamlığının qorunması və rifahının yaxşılaşdırılması, xalqımızın bu bəladan daha az itkilərlə xilas olması istiqamətində gördüyü mühüm işlərə görə Prezident İlham Əliyevə respublikamızın bütün guşələrindən minnətdarlıq məktubları ünvanlanmaqda davam edir.***

***Prezidentin saytına istinadla "Qəbələ" ölkə başçısının ünvanına həmyerlilərimiz tərəfindən göndərilən məktubları təqdim edir:***

**İvan Şabanov və Elnarə Şərifova:**

"Möhtərəm cənab Prezident!

Dünyanı bürüyən koronavirus pandemiyası ilə bağlı gördüyünüz işlər və xüsusi karantin rejiminin tətbiqi bu xəstəliyin Azərbaycanda geniş yayılmasının qarşısını aldı. Qabaqlayıcı tədbirlərə, həmçinin işləməyən şəxslərə 190 manat birdəfəlik ödənişin verilməsinə, aztəminatlı ailələrə isə ərzaq yardımının göstərilməsinə görə rayonumuzun sakinləri adından Sizə minnətdarıq. Biz Sizinlə fəxr edirik. Allahdan Sizə cansağlığı diləyirik. Əminik ki, Sizin sayənizdə Qarabağımız da tezliklə işğaldan azad olunacaq".

* * *

Hörmətli cənab Prezident!

Sizi Qəbələ şəhər 4 nömrəli tam orta məktəbin 3-cü və 5-ci sinif şagirdləri Ömər Cəlilov və Mələk Cəlilova salamlayırlar. Sizə ürək sözlərimizi çatdırmaq istəyirik.

Hazırda dünya və ölkəmiz ağır sınaqdan keçir. Koronavirus pandemiyası hər gün dünyada yüzlərlə insanın həyatına son qoyur. Siz və Mehriban xanım Əliyeva COVİD-19 virusuna qalib gəlmək üçün müxtəlif tədbirlər görürsünüz. Dünyanı bürüyən pandemiya dövründə Siz biz vətəndaşların yanında oldunuz. Azərbaycanda bu virusa yoluxma və ölüm halları digər ölkələrdən dəfələrlə azdır. Bu, Sizin müdrik qərarlarınızın nəticəsidir.

Biz istəyirik ki, hər gün məktəbə gedək, uşaqlarla oynayaq, parkda əylənək. Amma biz Sizin «Evdə qal!» çağırışınıza qoşulduq. Biz evdə qalmağımıza baxmayaraq dərslərimizi davam etdirir, onlayn dərslərin iştirakçısı oluruq.

Biz və valideynlərimiz Sizə və Mehriban xanıma dərin təşəkkürümüzü bildiririk.

**Hörmətlə:**
**Cəlilov Ömər Araz oğlu,**
**Cəlilova Mələk Araz qızı.**
**Azərbaycan Respublikası,**
**Qəbələ şəhəri.**

## 5 iyun – Ümumdünya Ətraf Mühit Günüdür

1972-ci ildə Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının İsveçin paytaxtı Stokholmda keçirilən iclasında 5 iyun tarixinin Ümumdünya Ətraf Mühit Günü kimi qeyd olunmasına qərar verilib. O vaxtdan etibarən həmin tarix bütün dünyada təntənəli şəkildə qeyd olunur.

Ətraf mühitin mühafizəsi və ekoloji problemlər Azərbaycanda da diqqət mərkəzindədir. Ekoloji təhlükəsizliyin təmin olunması üçün ətraf mühitin çirklənməsinin minimuma endirilməsi və mühafizəsinin təkmilləşdirilməsi, indiki və gələcək nəsillərin tələbatını ödəmək məqsədilə təbii sərvətlərdən səmərəli istifadə, alternativ enerji mənbələrindən yararlanmaq və beynəlxalq təşkilatlarla əlaqələrin genişləndirilməsi bu gün də Azərbaycan dövlətinin ekoloji siyasətinin əsas istiqamətləridir.

Ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin imzaladığı fərmanlarda, təsdiq etdiyi dövlət proqramlarında ekoloji mühitin sağlamlaşdırılması məqsədilə nəzərdə tutulan hədəflərin reallaşması üçün yerinə yetirilməsi zəruri olan vəzifələr müəyyənləşdirilib, biomüxtəlifliyin mühafizəsi, meşələrin inkişafı, yaşıllıqların artırılması, su ehtiyatlarının davamlı idarə olunması sahəsində nəzərəçarpacaq nailiyyətlər əldə olunub.

## Gənclər pandemiyaya qarşı mübarizə tədbirlərinə dəstək olurlar

Azərbaycan Könüllülərinin Əlaqələndirmə Mərkəzinin (AKƏM) başlatdığı "Bir-birimizi qoruyaq!" kampaniyasına Qəbələ rayonunun gənc könüllüləri də fəal qoşularaq, vətəndaşlara pandemiyaya qarşı istifadə üçün ələcək və tibbi maskalar paylayıblar.

Kampaniya karantin rejiminin yumşaldılması ilə əlaqədar vətəndaşların kütləvi toplaşdığı yerlərdə sosial məsafənin qorunması və digər davranış qaydaları barədə sakinlər arasında ictimai maarifləndirmənin aparılması, cəmiyyətin sağlamlığının qorunması məqsədi daşıyır.

Davamlı olaraq həyata keçirilməsi nəzərdə tutulan sosial aksiya vətəndaşlar tərəfindən rəğbətlə qarşılanıb.

**"Qəbələ"**

## Fədakar tibb işçiləri daim sakinlərin xidmətindədir

Bu günlərdə rayon mərkəzi xəstəxanası tərəfindən daha bir xeyriyyə aksiyası keçirilmişdir. Tibb işçiləri 42 aztəminatlı ailəyə ərzaq sovqatı paylamışdır. Bu səhiyyə işçilərinin koronavirus (COVID-19) infeksiyasına qarşı mübarizə tədbirləri çərçivəsində sayca 3-cü xeyriyyə aksiyasıdır.

Ölkə başçısı İlham Əliyevin koronavirus (COVİD-19) pandemiyasına qarşı mübarizədə ön cəbhədə olan tibb işçilərinə yüksək qayğısı, mənəvi və maddi dəstəyi bütün ölkədə olduğu kimi Qəbələnin səhiyyə işçiləri tərəfindən də böyük rəğbətlə qarşılanmışdır.

Kollektivin mart və aprel ayları üzrə ödənilməli olan müddətli əməkhaqqı əlavələri onların kart hesablarına köçürülmüşdür.

Qayğıkeş tibb işçiləri daim rayon sakinlərin xidmətindədir.

**"Qəbələ"**

## Yeni iş yerləri açılıb

Cari ilin birinci rübündə Qəbələ rayonunda 294 yeni, daimi iş yeri açılıb. İş yerlərinin 131-i mövcud müəssisə və təşkilatlarda, 163-ü isə fiziki şəxslər qismində yaradılıb.

Rayon statistika idarəsindən verilən məlumata görə emal sənayesində 23, kənd təsərrüfatı və balıqçılıq sahəsində 10, tikinti sektorunda isə 27 yeni iş yeri yaradılıb. Qalan iş yerləri ticarət, xidmət və digər sahələrin payına düşür.

Rayonda meyvəçiliyin inkişafı ilə əlaqədar yeni bağların salınması, həmçinin rayona dəmir yolu xəttinin çəkilişi layihəsinin icrası ilə bağlı görülən işlər yeni iş yerlərinin açılmasında, əhalinin işsizlik probleminin aradan qaldırılmasında mühüm rol oynayır.

**"Qəbələ"**

## Yeni xəstəxananın tikintisi sürətlə gedir

Rayon mərkəzi xəstəxanasının yeni binasında inşaat işləri sürətlə aparılır. 5 hektar ərazidə aparılan tikinti işlərinə 2018-ci ildən başlanıb. Səhiyyə ocağı 160 çarpayılıq əsas korpus və köməkçi binalardan ibarət olacaq.

Xəstəxananın əsas binasında cərrahiyə şöbəsi, reanimasiya, dializ, şüa diaqnostikası, biotomoqrafiya, uşaq şöbəsi, qadın şöbəsi, poliklinika və digər şöbələr yerləşəcək. Bundan başqa ərazidə yoluxucu xəstəliklər korpusu, camaşırxana, potoloji anatomiya, elektrik yarımstansiyası, qazanxana, 2 ədəd 200 kubmetrlik yanğınsöndürmə su anbarı, nasosxana da inşa olunur.

**"Qəbələ"**

## Ləki-Qəbələ dəmir yolu rayonumuzda turizmin inkişafına müsbət təsir göstərəcək



Rayonumuzda turizmin inkişafına müsbət təsir göstərəcək Ləki-Qəbələ dəmir yolu xəttinin tikintisi davam edir. Dəmir yolunun çəkildiyi ərazilərin çox hissəsi relyef baxımından dağlıq ərazi olsa da, torpaq yatağının hazırlanmasının 98 faizi artıq başa çatıb.

Birxətli dəmir yolunun tikintisinə 2018-ci ildə start verilib və 70 faizi tamamlanıb. Dəmir yolu xətti ox üzrə 42,3 kilometr, yan yollarla birlikdə isə 44,49 kilometrdir. Ləki-Qəbələ dəmir yolu xətti çətin dağlıq relyefdə layihələndirildiyinə görə torpaq yatağı yüksək qazma (90m) və tökmə ərazilərdən (12 m) keçir. 23,24 kilometr dəmir yolunun üst quruluşu üzrə tikinti-quraşdırma işləri yekunlaşıb.

Ləki stansiyasından start götürücək qatar Qəbələdəki hava limanının yanında tikilən dəmir yolu vağzalında dayanacaq. Qəbələ stansiya binasında, dəmir yolu platformalarında və yeni Qəbələ dartı yarımstansiyasında tikinti işləri davam edir. Həmçinin Hacıalılı yarımstansiyasının da təmiri işləri həyata keçrilir. Yağış sularının torpaq yatağından kənarlaşdırılması məqsədilə layihədə 13300 poqonmetr beton qanov nəzərdə tutulub və 2200 poqonmetr hissəsinin tikintisi başa çatıb.

Torpaq yatağının dayanıqlığını təmin etmək məqsədilə layihə üzrə uzunluqları 150 poqonmetr və 127 poqonmetr olan iki istinad divarının inşası nəzərdə tutulub və 127 poqonmetr olan istinad divarının tikintisi yekunlaşıb. Eyni zamanda, 10 kV-luq sərbəst yan qidalandırıcı elektirik verilişi xəttinin və kontakt dirəklərinin quraşdırılması işləri davam etdirilir. Bununla bərabər xətt üzrə hərəkət edəcək sürətli qatarın təhlükəsizliyini təmin etmək üçün dəmir yolunun təhkim zolağı boyunca 84600 paqonmetr metal hasarın çəkilməsi də nəzərdə tutulub

**"Qəbələ"**